AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

30 mart 2023-cü il
cümə axşamı

1933-cü ildən çıxır
№ 12 (3626)




**Polis peşəsi ağır peşədir. O, bir tərəfdən cəsarət, şəxsi mətanət, ikinci tərəfdən bilik, dərrakə, elm, təhsil, təcrübə tələb edir. Bunların hamısı bir yerdə cəmləşməsə, biz layiqli polis nəfərlərinə, zabitlərinə, işçilərinə malik ola bilmərik. Bunlar da olmasa, polis orqanları Azərbaycanın müstəqilliyini təmin edən böyük bir orqan kimi lazımi səviyyədə fəaliyyət göstərə bilməzdi.**

*Heydər Əliyev,*
*ümummilli lider*

## Rəsmi xronika

***Azərbaycan Prezidenti İlham Əliyev martın 28-də Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında sərəncam imzalayıb.***

***Dövlətimizin başçısı martın 28-də Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edib. Ölkəmizin rəhbəri qəbulda çıxış edib.***

***Martın 29-da Azərbaycan Prezidenti İlham Əliyev "Ağsu rayonunun Ağsu–Kürdəmir–Bəhrəmtəpə (19 km)–Ərəbmehdibəy–Dədəli–Qasımbəyli–Xəlilli–Mustafalı–Göydəlləkli–Təklə–Dəlilər–Qaraqoyunlu–Kəndoba avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb.***

# ERMƏNİSTANIN SON ŞANSI SÜLH ŞƏRTLƏRİMİZLƏ RAZILAŞMAQDIR



İkinci Qarabağ müharibəsi göstərdi ki, hər zaman sülhün, əmin-amanlığın tərəfdarı olan Azərbaycan düşməni və onun havadarlarını məğlub etməklə torpaqlarımızın işğalına son qoydu, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnaməni özü öz gücünə icra etdi. Vətən savaşına qədər ötən illər ərzində Azərbaycan işğalla bağlı reallıqları bütün beynəlxalq təşkilatlara çatdırmış, məsələnin sülh yolu ilə həllinə çalışmışdır. Lakin heç bir beynəlxalq qurum Ermənistana təzyiq göstərməmiş, əksinə Qarabağ münaqişəsinin həll olunmasına deyil, davam etməsində maraqlı olmuşlar. Buna görə də Azərbaycan Qarabağ münaqişəsini hərb meydanında, həm də çox qısa zamanda cəmi 44 gündə həll edərək ədaləti güc yolu ilə təmin etdi.

"Yenilməz" ordusunun darmadağın olunmasından, biabırçı məğlubiyyətindən dərs çıxarmayan Ermənistan hələ də anlamır ki, bölgədə əmin-amanlığın bərqərar olması, sülh şəraitində birgə yaşayışın təmini üçün 10 noyabr üçtərəfli Bəyanatın şərtlərinə tam əməl etməli, şərtlərimizlə razılaşmalıdır. Çünki iqtisadi, siyasi və hərbi gücü onu düşdüyü durumdan çıxara bilməyəcək. Əks təqdirdə "dəmir yumruq" öz işini görməli olacaq.

Təəssüflər olsun ki, bölgəyə gəlmiş Avropa İttifaqının "sülhməramlı" missiyasının varlığından cuşa gələn haylar son dövrlər Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki silahlı tör-töküntülər üçün silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınmasını intensivləşdiriblər. Hətta Xankəndi-Xəlfəli-Turşsu və bu marşrutdan şimalda keçən Xankəndi-Kosalar-Mirzələr-Turşsu yollarında qeyri-qanuni yol tikinti işləri aparmaları da qeydə alınıb. Ermənistan tərəfindən davamlı olaraq törədilən bütün bu hərbi cinayətlər Azərbaycan-Ermənistan arasında sərhəd nəzarət-buraxılış rejiminin tətbiq edilməsinin vacibliyini bir daha önə çəkir.

Görünən odur ki, düşmənlərimiz Azərbaycana qarşı işğalçılıq siyasətini hələ də davam etdirir və heç bir vəchlə sülh bağlamaq niyyətində deyil. Həmçinin ona havadarlıq edənlər də Qafqazda sülhün olmasını istəmirlər.

Və onlara ən gözəl cavabı martın 18-də Talış kəndində bayram tonqalını alovlandıran Müzəffər Ali Baş Komandan verir: "Əfsuslar olsun ki, bu gün İkinci Qarabağ müharibəsi hələ ki, Ermənistana ibrət dərsi olmayıb. Çünki biz görürük ki, Ermənistanda revanşist qüvvələr baş qaldırıblar. Ermənistanda yenə də Azərbaycana qarşı, Azərbaycan torpaqlarına qarşı ərazi iddiaları qaldırılır.

İşğal reallıqları, müharibə reallıqları, postmüharibə reallıqları sülh danışıqlarında öz əksini tapmalıdır və tapacaq. Əks təqdirdə heç bir sülh müqaviləsi olmayacaq. Ermənistana lazım deyilsə, bizə də lazım deyil. Ondan sonra görək, baxaq bunun axırı nə olacaq?!"



# PREZİDENTİN MƏTBUAT XİDMƏTİNDƏN

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel martın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon danışığı əsnasında Şarl Mişel 2023-cü il fevralın 17-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində dövlətimizin başçısı ilə keçirdiyi görüşü məmnunluqla xatırlayıb, 2021-ci il dekabrın 14-dən 2022-ci il avqustun 31-dək olan dövr ərzində üçtərəfli formatda keçirilmiş görüşlərdə müzakirə edilmiş müxtəlif məsələlərə toxunub.

Şarl Mişel Avropa İttifaqının regionda davamlı sülhün və təhlükəsizliyin təmin olunması üçün səylərini bundan sonra da davam etdirəcəyini deyib. Avropa İttifaqı Şurasının Prezidenti Azərbaycanın Laçın-Xankəndi yolu ətrafındakı məsələlərə toxunub və son günlərdə Ermənistanla Azərbaycanın dövlət sərhədində baş vermiş insidentlərlə əlaqədar narahatlığını ifadə edib.



Prezident İlham Əliyev Azərbaycanın Brüssel prosesini dəstəklədiyini bir daha vurğulayıb. Laçın-Xankəndi yolu ətrafındakı vəziyyətə toxunan Azərbaycan Prezidenti qeyd edib ki, bu yolun guya bağlı olması ilə əlaqədar Ermənistanın irəli sürdüyü iddialar tamamilə yalandır. Belə ki, 2022-ci il dekabrın 12-dən bu günədək Rusiya sülhməramlılarına və Beynəlxalq Qırmızı Xaç Komitəsinə məxsus 5 minə yaxın nəqliyyat vasitəsi, tibbi yardıma ehtiyacı olan şəxs və onları müşayiət edənlər bu yoldan keçiblər.

Dövlətimizin başçısı Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərinə Ermənistan tərəfindən silah-sursat və şəxsi heyətin daşınması prosesinin hələ də həyata keçirildiyini bildirib.

Azərbaycan Prezidenti Ermənistan rəhbərliyinin təhlükəli və eskalasiyaya yönəlmiş rəsmi açıqlamalarına diqqət çəkib. Dövlətimizin başçısı qeyd edib ki, 2023-cü il martın 20-də Avropa İttifaqı missiyasının yerləşdiyi Ermənistan-Azərbaycan dövlət sərhədi istiqamətində Ermənistanın növbəti təxribatı zamanı Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusu yaralanıb və martın 5-də Azərbaycanın Qarabağ bölgəsində qeyri-qanuni erməni hərbi birləşmələrinin törətdikləri təxribat zamanı 2 hərbi qulluqçumuz şəhid olub.

Azərbaycan Prezidenti vurğulayıb ki, bütün bunlar Ermənistanın apardığı təhlükəli siyasətin nəticəsidir.

# BAŞ İDARƏDƏ ANIM TƏDBİRİ KEÇİRİLİB

## *Tarix unudulanda soyqırım və deportasiyalar təkrarlanır*

**Nəqliyyatda Baş Polis İdarəsində 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı anım tədbiri keçirilib. Tədbirdə rəis müavini, polis polkovniki Nəriman İmanov, məruzəçi qismində Prezident kitabxanasının şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dövlət mükafatı laureatı Nazim Mustafa və idarənin şəxsi heyəti iştirak edib.**

Tədbir 1918-ci ilin mart-aprel aylarında azərbaycanlılara qarşı törədilən soyqırımı qurbanlarının, həmçinin Vətənimizin müstəqilliyi və ərazi bütövlüyünün qorunması uğrunda canını fəda etmiş şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.



***Sonra polis polkovniki Nəriman İmanov çıxış edərək erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı məqsədyönlü şəkildə törədilən soyqırımı siyasətindən danışıb.*** Xüsusilə qeyd edib ki, tariximizdə baş verənlərdən ibrət götürmək və gənc nəslin məlumatlı olması üçün daxili işlər orqanlarında, hərbi hissələrdə də bu mövzuda silsilə tədbirlər keçirilir. İkinci Qarabağ müharibəsində qazandığımız Zəfərə diqqət çəkən rəis müavini əzəli torpaqlarımızın işğaldan azad olunmasında Ordumuzun, o cümlədən DİN Daxili Qoşunları hərbçilərinin Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında əsl qəhrəmanlıq salnaməsi yazdıqlarını, xalqımızın ölkə rəhbərinin ətrafında bir yumruq kimi birləşdiyini vurğulayıb.

Daha sonra 31 Mart Soyqırımının baş vermə səbəbi, tarixi hadisələrin gedişatı və ağır nəticələri haqqında Nazim Mustafa geniş məruzə ilə çıxış edib. O, bildirib ki, Gülüstan və Türkmənçay müqavilələrindən sonra məqsədli şəkildə ermənilər kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülüblər. İrəvanda, Naxçıvanda və Qarabağda ermənilər məskunlaşdırılandan sonra azərbaycanlıların öz torpaqlarından çıxarılması və məhv edilməsi siyasətinin əsası qoyuldu. Ardınca "böyük Ermənistan" xülyasının ortaya atılması ilə türk və müsəlman qanına susamış haylar, beləcə, daha genişmiqyaslı qanlı aksiyalar həyata keçirməyə başladılar.

***Məruzəçi vurğulayıb ki, mart qırğınlarında ermənilərin "Daşnakstyun" və "Hınçaq" təşkilatları fəallıq göstəriblər. Öz çirkin məqsədlərinə nail olmaq üçün dinc əhaliyə qarşı silah işlədilməsini nizamnamələrində belə əks etdirən bu terror qrupları on minlərlə insanı məhz etnik və dini mənsubiyyətinə görə məhv ediblər. Nəticədə mart qırğınlarında 50 min azərbaycanlı qətlə yetirilib.*** Anadoluda türk ordusuna qarşı vürüşüb məğlub olan 6 min erməni silahlı quldurun Bakıya gəlib burada Şaumyanın dəstəyi ilə soyqırımda iştirak etdiyini qeyd edən natiq xalqımızın erməni terrorçularına müqavimət göstərdiyini, onlarla mübarizə apardığını da deyib. Vedibasarda və Zəngibasarda yaradılan milli şuralar yerli sakinləri öz ətrafına yığıb daşnak-bolşevik qüvvələrinə qarşı döyüşüblər. 1905-ci ildən başlayan soyqırım siyasətinin daha sonrakı illərdə azərbaycanlıların Qərbi Azərbaycandan deportasiya edilməsi ilə davam etdirildiyini söyləyən N.Mustafa 1988-ci ildəki sonuncu qovulmada 250-dən çox həmyerlimizin öldürüldüyünü diqqətə çatdırıb.



***Hakimiyyətə yenidən gəldikdən sonra Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlət başçısı kimi 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanı ilə üzləşdiyimiz faciələrin ilk dəfə rəsmən adının çəkildiyini qeyd edən N.Mustafa bununla da mənfur düşmənin əməllərinə siyasi qiymət verildiyini bildirib.*** Qubadakı kütləvi məzarlığın soyqırıma şahidlik etdiyini qeyd edən natiq dövlətimizin başçısı İlham Əliyevin 2009-cu ildə imzaladığı Sərəncamla erməni millətçilərinin cinayətkar əməllərinin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının gələcək nəsillərinin milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə Quba şəhərində "Soyqırımı Memorial Kompleksi"nin yaradıldığını xatırladıb.

***O, sonda deyib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın bölgəyə gətirdiyi yeni reallıqlar, sülh və təhlükəsizlik bir zamanlar erməni millətçilərinin etnik təmizliyə məruz qoyduqları Şərqi Zəngəzurun və Qarabağın əsl sakinlərinin öz torpaqlarına qayıtmasına, orada əbədi xoşbəxt yaşamalarına zəmin yaradacaq.*** Ancaq bundan sonra da başımıza gətirilən müsibətləri unutmamalı, əksinə, gənc nəslə anlatmalı və aşılamalıyıq ki, bir daha erməni faşizmi ilə üzləşməyək.

# MART SOYQIRIMI VƏ TARİXİN İZİ İLƏ...

1918-ci ilin 30 mart və 3 aprel tarixləri arasında Bakı şəhərində, eləcə də Şamaxıda, Qubada, Xaçmazda, Lənkəranda, Hacıqabulda, Salyanda, Zəngəzurda, Qarabağda, Naxçıvanda erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı qırğın törədiblər.

Soyqırımın nəticəsində minlərlə azərbaycanlı qətlə yetirilib.




Həmin dəhşətli günlərin şahidi olmuş Kulner familiyalı bir alman, 1925-ci ildə Bakı hadisələri barədə bunları yazırdı: "Ermənilər müsəlman (azərbaycanlı) məhəllələrinə soxularaq hər kəsi öldürür, qılıncla parçalayır, süngü ilə dəlmə-deşik edirdilər. Qırğından bir neçə gün sonra bir çuxurdan çıxarılan 87 azərbaycanlı cəsədinin burunları kəsilmiş, qarınları yırtılmış, cinsiyyət orqanları doğranmışdır. Ermənilər uşaqlara acımadıqları kimi, yaşlılara da rəhm etməmişdilər." Gənc qadınların diri-diri divara mıxlanması, ermənilərin hücumundan sığınmağa çalışan iki min nəfərin yerləşdiyi şəhər xəstəxanasının yandırıldığı da bu dəhşətli faktlar sırasındadır.

İrəvan quberniyası, Şərur-Dərələyəz, Sürməli, Qars və digər ərazilərdə azərbaycanlıların qırğınının fəal iştirakçılarından biri olmuş erməni zabiti Ovanes Apresyanın xatirələri əsasında amerikalı aqronom Leonard Ramsden Hartvill "İnsanlar belə imişlər" adlı kitab yazıb. Ovanes Apresyan kitabın müəllifi ilə söhbəti zamanı ingilislərin və rusların yardımı ilə ermənilər öz məqsədlərinə çatdıqlarını qeyd edərək, təkcə Bakıda Mart qırğını zamanı iyirmi beş min azərbaycanlının qətlə yetirildiyini bildirib.

Bu hadisələrin dəhşətləri ilə bağlı 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Demokratik Respublikası hökumətinin, Fövqəladə İstintaq Komissiyasının materiallarından:

1918-ci ilin mart-aprel aylarında Şamaxıda 8 minə qədər dinc sakin qətlə yetirilmişdir. Şamaxı Cümə məscidi də daxil olmaqla əksər mədəniyyət abidələri yandırılmış və uçurulmuşdur.

Cavanşir qəzasının 28 kəndi, Cəbrayıl qəzasının 17 kəndi tamamilə yandırılmış, əhalisi məhv edilmişdir.

1918-ci il aprelin 29-da Gümrü yaxınlığında əsasən qadınlardan, uşaqlardan və yaşlılardan ibarət 3 min nəfərlik azərbaycanlı köçü pusquya salınaraq son nəfərinədək məhv edilmişdir.

Erməni silahlı dəstələri Zəngəzur qəzasında 115 azərbaycanlı kəndini məhv etmiş, 3 min 257 kişi, 2 min 276 qadın və 2 min 196 uşağı öldürmüşdülər. Bütövlükdə bu qəza üzrə 10 min 68 azərbaycanlı öldürülmüş və ya şikəst edilmiş, 50 min azərbaycanlı qaçqın düşmüşdür.

İrəvan quberniyasının 199 kəndində yaşayan 135 min azərbaycanlı məhv edilmiş, kəndlər isə yerlə yeksan edilmişdir. Erməni silahlı dəstələri daha sonra Qarabağa yürüş etmiş, 1918-1920-ci illər arasında Qarabağın dağlıq hissəsində 150 kənd dağıdılmış, əhalisi məhv olunmuşdur.

*Hazırladı: R.Əliyeva*

# HEYDƏR ƏLİYEV MUZEYİNƏ EKSKURSİYA








Neft Emalı Obyektlərinin Mühafizəsi İdarəsinin əməkdaşları Polis Akademiyasında Heydər Əliyev Muzeyini ziyarət ediblər.

2023-cü ilin "Ümummilli lider Heydər Əliyev İli" olması münasibəti ilə təşkil edilən ekskursiya **İdarənin rəis müavini, polis polkovnik-leytenantı Emil Quliyev, bölük komandiri, polis kapitanı Kamil Zeynalov, taqım komandiri, polis kapitanı Elmar Məmmədov və baş inspektor, polis baş leytenantı İsmayıl Abdullayevin** rəhbərliyi ilə gerçəkləşib.

İdarənin əməkdaşları muzeydə zəngin fond materiallarına, sənədlər və eksponatlara, ulu öndərin mənalı həyatını, uşaqlıq və gənclik illərini, xalqımızın rifahı naminə siyasi fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən stendlərə baxıblar.

Ulu öndərin ailəsi və yaxınlarının fotoşəkilləri ilə tanışlıqdan sonra onun iş fəaliyyəti, habelə çalışdığı vəzifələr barədə məlumat verilib.

Qeyd edilib ki, dahi şəxsiyyət muzeylərə sığmayan zəngin ömür yolunu, ölkəyə rəhbərlik etdiyi illərini həm də daxili işlər orqanlarının peşəkar quruma çevrilməsinə, ölkədə ictmai asayişin və təhlükəsizliyin qorunması, qanunvericiliyin təkmilləşdirilməsi işinə həsr etmişdi. Ulu öndər Heydər Əliyevin polad iradəsi, qanunsuz əməllərə qarşı barışmazlığı dövlət əleyhinə yönələn hər cür cinayətkar qəsdlərin qarşısına səd çəkirdi və o, bu taleyüklü məsələdə məhz Azərbaycan Polisinə arxalanırdı.

Həmkarlarımız muzeydən zəngin təəssüratla ayrılıblar.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# Həmkarlarımız şəhid ailələrini ziyarət edib

Azərbaycan Polisi Novruz bayramı ərəfəsində ənənəsinə sadiq qalaraq paytaxtda və bölgələrdə qazilərə, müharibə veteranlarına, aztəminatlı, o cümlədən şəhid ailələrinə baş çəkib.

Xızı rayonunda bu kateqoriyadan olan ailələri ziyarət edən RPŞ-nin əməkdaşları bayram münasibətilə xoş arzularını çatdırıb, sovqatları təqdim ediblər. Bildirilib ki, əlillərin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların hər cür qayğı ilə əhatə olunması dövlət siyasətinin prioritet istiqamətlərindəndir.

Şirvan Şəhər Polis Şöbəsinin əməkdaşları Vətən müharibəsində şəhid olmuş DİN Daxili Qoşunlarının hərbi qulluqçusu, baş əsgər Kamran Fərəcovun ailəsinə baş çəkib, bayram sovqatını təqdim ediblər.

Asayiş keşikçiləri şəhidin valideynləri ilə həmsöhbət olub, onun keçdiyi şərəfli döyüş yolunu xatırlayıblar.

Novruz bayramı ərəfəsində Biləsuvar, Cəlilabad rayonundakı şəhid ailələrinin üzvləri, Yardımlıda isə aztəminatlı ailələr də diqqətdən kənarda qalmayıb. Rayon Polis şöbələrinin əməkdaşları Vətən müharibəsində şəhid olmuş DİN-in Daxili Qoşunlarının hərbi qulluqçuları-Elvin Məmmədovun, Ruslan Qurbanovun, Asif Talıblının, Orxan Mirzəyevin, Fərid Hüseynovun, Mirsəfa Mirəşrəfbəylinin, Elnur Bağırovun və Ayaz Abasovun ailələrini ziyarət ediblər.

Göyçay RPŞ-nin əməkdaşları da bu nəcib təşəbbüsə qoşulublar. Şəhidlərimizin ailə üzvlərini, övladlarını təbrik edən həmkarlarımız onları təbrik edib, maddi və mənəvi dəstək göstəriblər. Ümumilikdə RPŞ əməkdaşları tərəfindən 70 ailə ziyarət olunub.

Şəhid ailə üzvləri onlara göstərilən diqqətə və qayğıya görə ölkə, eləcə də DİN rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.

Qeyd edək ki, anoloji görüşlər digər rayonlarda da keçirilib.













## BİZƏ YAZIRLAR...

**Bakı şəhər sakini Əsəd Dədəverdiyev yazır:** "Ağ şəhər ərazisində özümü pis hiss etdiyim üçün maşını saxlayıb dərman içmişdim ki, təzyiqim düşsün. Bu zaman Dövlət Yol Patrul Xidmətinin əməkdaşı mənə yaxınlaşıb burada dayanmağımın səbəbini soruşdu. Vəziyyəti bildikdə mənə təcili yardım çağırmasını təklif etdi. Bildirdim ki, dərman içmişəm. Vətəndaşların qayğısına, onların təhlükəsizliyinə laqeyd olmayan, layiqincə xidmət aparan Azərbaycan Polisi ilə qürur duydum."

"Mobil telefonum naməlum şəraitdə itmişdi. Tapılması üçün üz tutdum Nizami Rayon Polis İdarəsinin 24-cü Polis Bölməsinə. Gəlişimin səbəbini bildirdikdən sonra izahatım alındı. Bir-neçə gün keçməmiş telefonum tapılaraq mənə qaytarıldı". **Bu fikirlər sosial şəbəkə istifadəçisi Nəsrəddin Səfərovun məktubunda yazılır.**

**Sosial şəbəkə izləyicisi Mələkxanım Həşimova:** "İnstagram səhifəsi ilə DİN rəhbərliyinə müraciət etdim. Müraciətimdən dərhal sonra Xəzər Rayon Polis İdarəsinə dəvət olundum. Rəis müavini məni qəbul edib dinlədi. Problemim tez bir zamanda həllini tapdı".

Martın 26-da Ağdamın "Qarabağ" və İstanbulun "Galatasaray" futbol komandaları arasında Bakı Olimpiya stadionunda keçirilmiş xeyriyyə oyununun təəssüratlarını təqaüddə olan polis polkovniki Rahib Qarayev belə bölüşür: "62 min insanın eyni vaxtda, eyni məkana getməsi və geri qayıtması təbii ki ciddi tədbirlərin həyata keçirilməsini zəruri edirdi. Azərbaycan Polisi bu məsul vəzifəni yüksək səviyyədə yerinə yetirdi. Buna görə ölkənin daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazova, hər bir polis əməkdaşına, o cümlədən Daxili İşlər Nazirliyinin hərbi qulluqçularına öz adımdan



dərin təşəkkürümü bildirir, fəaliyyətlərində uğurlar diləyirəm."

Portmanatımı itirmişdim. İçində lazımi sənədlərin olması məni çox narahat edirdi. Kömək üçün Yasamal RPİ-nin 26-cı Polis Bölməsinə gəldim. Həyəcanlı olduğunu görən əməkdaşlar onun tez bir zamanda tapılacağını bildirib məni sakitləşdirdilər. Elə də oldu. Pulqabım tapılaraq mənə qaytarıldı. Polislərimizə minnətdarlığımı bildirirəm". **Bu sətirlər sosial şəbəkə izləyicisi Yasəmən Hüseynova tərəfindən yazılıb.**

*Ruhiyyə Əliyeva,*
*polis kapitanı*

# Tədbirlər planı uğurla həyata keçirilir

Daxili İşlər Nazirliyinin "2022-2023-cü illərdə daxili işlər orqanlarında ideoloji işin aparılması üzrə" tədbirlər Planının icrası ilə bağlı həyata keçirilən görüşlər uğurla davam etdirilir. Seminarların məqsədi şəxsi heyətin, xüsusən gənc əməkdaşların İli" elan edilməsi ilə bağlı tədbirlər Planı"ndan irəli gələn məsələlər, "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın daxili işlər orqanlarında yerinə yetirilməsindən irəli gələn tələblər, eləcə zidd olan pis vərdişlərlə mübarizə və sosial şəbəkələrdən istifadənin yolverilməzliyi, cəmiyyətdə qəbul olunmuş mənəvi, əxlaqi, habelə mədəni davranış, ailə-məişət normalarına riayət olunmasının vacibliyi" barədə zəruri məlumatlar verilib.









mənəvi-psixoloji hazırlığının yüksəldilməsidir.

Növbəti belə seminar-məşğələlər DİN Şəxsi Heyətlə İş İdarəsinin təşkilatçılığı ilə Suraxanı və Xətai Rayon Polis idarələrində keçirilib. İştirakçılara "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev də "Daxili işlər orqanları əməkdaşlarının etik davranış Kodeksi" - əməkdaşların xidmət zamanı, xidmətdən kənar vaxtlarda etik davranış qaydalarına əməl etməsinə, polisin cəmiyyətdə nüfuzunun artırılmasına xidmət edən normativ və nizamlayıcı sənəd kimi" və "Etik davranış qaydalarına

Görüşlərdə ümummilli lider Heydər Əliyevin zəngin həyat və fəaliyyətindən danışılıb, sosial şəbəkələrdən istifadə, o cümlədən korrupsiya hallarına qarşı mübarizə sahəsində iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

*Teymur Əlizadə,*
*polis mayoru*

# "İsti izlər"lə...

Taksi fəaliyyəti ilə məşğul olan S.Abışov gecə saatlarında tanımadığı şəxs tərəfindən quldurluğa məruz qalması ilə bağlı Binəqədi RPİ-nin 43-cü Polis Bölməsinə müraciət edib.

"Polis"in suallarını cavablandıran Bölmənin təhqiqatçısı, polis mayoru Rza Nəzərli bildirdi ki, vətəndaşın müraciəti əsasında keçirilən əməliyyat tədbirlərilə hadisəni törətməkdə şübhəli bilinən Əbdüləli Quliyev tərəfimizdən saxlanıldı.



Dindirilmə zamanı, o bu əməli tamah məqsədilə törətdiyini etiraf etdi.

Səbuhi Abışov DİN-ə təşəkkür məktubu ünvanlamağı da unutmayıb. O, qeyd edir ki, "Müraciətimin tez bir zamanda həll olunacağına inanırdım. Azərbaycan Polisinə minnətdaram".

*R.Əliyeva*









İşğaldan azad olunmuş ərazilərə giriş-çıxış üçün təşkil edilmiş nəzarət postlarında polis əməkdaşları fasiləsiz olaraq xidmətlərini davam etdirirlər. Qeyd edək ki, ərazilərə yalnız xüsusi icazəsi olan şəxslər buraxılırlar.

Ötən müddət ərzində əməkdaşların xidmət şəraitinin yaxşılaşdırılması, eləcə də qabaqcıl texnika, xüsusi vasitələr və rabitə sistemləri ilə təchiz edilmələri istiqamətində ardıcıl olaraq müvafiq tədbirlərin həyata keçirilməsi vətəndaşlar tərəfindən də rəğbətlə qarşılanır.

*Zeyni Hüseynov,*
*polis baş leytenantı*

***30 il öncə Kaliforniyada fəaliyyətə başlayıb və dörd gün davam edib. İl ərzində iki dəfə keçirilən bu konfranslara dünyanın ən tanınmış fikir adamları təşrif buyurur. Onlar 18 dəqiqə ərzində öz fikirlərini auditoriyaya çatdırırlar. Söhbət hansı konfranslardan gedir?***




**Vatsap:**
**+99455-875-16-39**

# Çətin sualın cavabı tapılıb



Sokratın mühakimə olunduğu çox məşhur bir məhkəmə prosesi var. Müttəhim kürsüsündə əyləşən filosof bir günün içində sorğu-suala çəkilib zəhər içməklə ölümə məhkum edilməzdən əvvəl soyuqqanlılıqla belə deyir: "Mən inamla deyə bilərəm ki, heç kəsi düşünülmüş şəkildə incitməmişəm, ancaq sizi buna inandırmağı bacarmıram, çünki bizim söhbət etməyimiz üçün çox az bir vaxt ayrılıb. Mənə elə gəlir ki, bizdə də başqa yerlərdə olduğu kimi ölüm işi ilə bağlı məhkəmə prosesi bir gün deyil, bir neçə gün davam eləsəydi, sizi özümün günahsızlığıma inandıra bilərdim; indi mənə verilən qısa vaxt ərzində belə bir böyük yalanı təkzib eləmək çox çətindir".

Adətən qəzet dərc edildiyi günün səhəri cavablar gəlməyə başlayır. Bu suala cavab isə bir neçə nömrədən sonra nəhayət ki, tapıldı.

**DİN Baş Kadrlar İdarəsinin baş inspektoru, polis polkovnik-leytenantı Ramin Babayev** filosofun adını vatsap nömrəmizə göndərməklə adını qalib oxucular siyahısına yazdırıb. O, bizdən Vilayət Quliyevin Əhməd bəy Ağaoğlunun vəfatının 80 illiyinə həsr etdiyi "Türkiyəni duyğulandıran ölüm" adlı əsərini əldə edib.

Həmkarımızı təbrik edir, xidmətində uğurlar arzulayırıq.

# Bizim idman uğurumuz







Bu günlərdə güc idman növləri Stronqmen və "strict curl" üzrə keçirilən Azərbaycan Çempionatı başa çatıb. Yarışda **Gəncə Şəhər Baş Polis İdarəsinin Xüsusi Təyinatlı Bölüyünün polis serjantı Röyal Rəsulov** çəkisi 97 kiloqram olsa da, 110 kiloqram çəkidə mübarizə aparan idmançılar arasında 95 kiloqram qaldırmaqla gümüş medal qazanıb. **Quba Rayon Polis Şöbəsinin əməkdaşı, polis serjantı Məhərrəm Qəhrəmanov** isə 95 kiloqram çəki dərəcəsində loglift hərəkətində hamıdan güclü olub. Həmkarımız iki hərəkətdə loglift və deadliftdə 325 kiloqram qaldıraraq gümüş medala sahib çıxıb.

❖❖❖

**DİN Daxili Qoşunlarının İdman komandasının məşqçi-müəllimi, kapitan Ruslan Lunyov** Hindistanın Bhopal şəhərində güllə atıcılığı üzrə keçirilən İSSF dünya kubokunun mərhələ yarışında pnevmatik tapançadan 10 metr məsafəyə atəş açaraq 579 bal toplayıb. O, yerli idmançılar arasında Paris-2024 Yay Olimpiya Oyunlarına ilk lisenziya qazanan idmançı olub. Hərbi qulluqçumuz gümüş medal qazanıb.

❖❖❖

Dövlət qurumları arasında ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş minifutbol turnirinin ikinci mərhələsinin A və B qruplarında keçirilmiş 1-ci turun nəticələrinə əsasən Daxili İşlər Nazirliyi Ədliyyə Nazirliyini 2 : 1 hesabla məğlub edərək, növbəti oyunda Baş Prokurorluqnan üz-üzə gələcək. Komandamıza uğurlar arzulayırıq.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# Ən sərrast atıcılar müəyyənləşib



DİN İdman Cəmiyyətinin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş regionlararası silsilə idman turnirləri davam etdirilir. Növbəti belə yarışlar DİN Daxili Qoşunların Quba rayonunda yerləşən hərbi hissəsində və Qax Rayon Polis Şöbəsində güllə atıcılığı üzrə keçirilib.

Şəhər, rayon polis orqanlarının 28 komandasından ümumilikdə 112 əməkdaş 2, 3 və 6 nömrəli tapşırıqlar üzrə hədəflərə atəş açıb. Hər üç normativlərin ən sərrast atıcıları medal, diplom və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

Qeyd edək ki, yarışları **İdman Cəmiyyətinin təşkili bölməsinin baş inspektoru, polis polkovnik-leytenantı Zaur Məcidov və fiziki hazırlıq şöbəsinin inspektoru, polis baş leytenantı Xudayar Kərimov** idarə ediblər.

*Ə.Teymur*

# Diləndirilən uşağa görə araşdırma aparılır



Polis əməkdaşları metroda dilənən uşağı aidiyyəti dövlət qurumuna təhvil veriblər. Azyaşlının metronun Koroğlu stansiyasının girişində dilənməsi barədə məlumat vətəndaşlar tərəfindən daxil olub.

**Bakı Metropolitenində Polis İdarəsinin İctimai Təhlükəsizlik Bölməsinin rəisi, polis mayoru Amil Səmədov** qəzetimizə bildirib ki, məlumat alan kimi uşaq oradan götürülüb, ancaq onun sənədləri olmadığına görə hələ ki, valideynlərinin kimliyi müəyyən edilməyib. Azyaşlı Qara Qarayev adına uşaq xəstəxanasına yerləşdirilib. Həkim müayinələri başa çatdıqdan sonra Sosial Xidmətlər Agentliyinin nəzarəti altında sığınacağa yerləşdiriləcək.

Uşağın diləndirilmə faktına görə Bakı şəhər BPİ-də aparılan araşdırma ilə bağlı aldığımız məlumatda qeyd edilir ki, küçədə aşkar edilən uşaqlar əvvəlki kimi polis əməkdaşları tərəfindən birbaşa sığınacağa yerləşdirilmir. Metroda dilənən azyaşlı bir müddət əvvəl də sığınacağa təhvil verilib, lakin görünən odur ki, bir müddət sonra oradan valideynləri tərəfindən götürülərək yenidən diləndirilib. Yeni qaydayla isə uşağın bundan sonrakı həyatı aidiyyəti dövlət qurumlarının - TƏBİB və Sosial Xidmətlər Agentliyinin nəzarətində olacaq.

*M.Rəşad*

# Stadiondakı QADIN POLİSLƏR...



Bakı Olimpiya Stadionunda Türkiyənin "Qalatasaray" futbol klubu ilə ölkəmizin "Qarabağ" klubu arasında keçirilən qardaşlıq görüşündə ictimai qaydanın və təhlükəsizliyin təmin edilməsinə qadın polis əməkdaşları da cəlb edilmişdi.

Qadın əməkdaşlar kişi həmkarları ilə bərabər mühüm vəzifələri layiqincə yerinə yetirdiklərini ölkəmizdə indəyədək keçirilən mötəbər beynəlxalq tədbirlərdə dəfələrlə təsdiq ediblər. Qardaşlıq oyunu onlara növbəti dəfə öz xidmətlərini nümayiş etdirmək imkanı verdi.

"Qarabağ"ın oyunlarına, adətən, qadın azarkeşlər də gəlir. Onların özləri ilə stadiona şüşə və digər qablar, alkoqollu içkilər, narkotik və psixotrop maddələr, odlu və soyuq silahları kimi qadağan olunmuş əşyaları keçirmələrinin qarşısını almaq üçün yoxlama-nəzarət postlarında qadın polislər xidmət aparırdılar.

Qrup rəhbərlərindən biri, **Bakı şəhər BPİ-nin baş inspektoru, polis polkovnik-leytenantı Kəmalə Ələkbərova** qəzetimizə bildirdi ki, azarkeşlər stadiona gəlməyə başladıqları andan matç bitənə və azarkeşlər stadionu tərk edənə qədər qadın həmkarlarımız qüsursuz xidmət etdilər. Ona həvalə edilən qrupun əsasən Bakı şəhərində yerləşən polis idarə və şöbələrindən təşkil olunduğunu deyən K.Ələkbərova azarkeşlər tərəfindən ciddi pozuntuya yol verilmədiyini də qeyd etdi.



*R.Mehtiyev*

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9860
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Çapa imzalanmışdır 17:30
Qiyməti 40 qəpik